**UOT 82-09**

**Nəzmiyyə Yigitoğlu**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
nazmiyya@mail.ru

# VEDİBASARIN İŞĞALI HƏQİQƏTLƏRİ BƏDİİ YARADICILIQDA (MƏMMƏD ORUCUN "QARA GÜZGÜ" TARİXİ ROMANI ƏSASINDA)

**Açar sözlər:** Erməni-daşnak hücumları, Böyük Vedi kəndi toponimləri, at kultu, "Mudros" sazişi
**Keywords:** Armenian-dashnak attacks, Toponyms of Big Vedi village, horse kult, "Mudros" agreement
**Ключевые слова:** Армяно-дашнакские нашествия, топонимы деревни Большой Веди, культ лошади, соглашение «Мудрос»

***Qara dərya akmam deyir,***
***Yakaları yıkmam deyir...***
***Adı gözəl Veysəl paşa***
***Mən Vedidən çıkmam deyir.***

***Qafqaz İslam Ordusu şərqilərindən***

**Giriş.** Xalqların çoxəsrlik mədəniyyət, dil, etnoqrafiya dəyərləri onun var olduğu tarixi torpaqlarda təşəkkül taparaq nəsildən-nəslə ötürülür. Zamanın dərin qatlarınadək gedib çıxan Azərbaycan dəyərləri də onun müxtəlif ərazilərində kök ataraq vahid bir vətən anlayışını yaratmışdır. Lakin torpaqlarımıza XIX əsrdən başlayan yadelli hücumlar bu vətənin dinc həyatına, iqtisadiyyatına olduğu kimi, sənətkarlıq, memarlıq incilərinə, hətta yerli dil-şivə quruluşuna belə dağıdıcı zərbələr vurmuşlar.

Azərbaycan ərazilərində heç bir bəşəri qanunlara sığmayan qəddar düşmən istilaları hələ XX əsrin lap əvvəlindən özünü göstərməyə başlayan erməni hücumlarıdır. Kiçik bir sabitlik, dinclik dövrünü çıxmaqla, demək olar ki, bütün XX əsr boyu fəaliyyətdə olan erməni-daşnak qaniçənliyi, onun gətirdiyi bəlalar haqqında həm dövrün mətbuat səhifələri, həm ayrı-ayrı publisistik yazılar, memuarlar, həm də tarixi materiallar, fotolar geniş məlumat verir. Lakin bu da unudulmamalıdır ki, qanlı hadisələrin bədii, obrazlı qələmə alınıb yaşadılmasında ədəbiyyatın, xüsusən də tarixi romançılığın böyük rolu vardır.

**"Altmışıncılar" ədəbi nəslinə mənsub olan Məmməd Oruc və tarixi romançılıq.** Azərbaycan xalqına qarşı bu gün də davam edən erməni qəsbkarlığının vaxtilə ağzına aldığı bölgələrimiz İrəvan, Naxçıvan, Qarabağ, Bakı, Şamaxı, Quba və digər ərazilər idi. Məhz o qanlı hadisələrin şahidi olmuş və ya şahid söyləmlərini qələmə almış sənətkarların əsərləri bu gün xüsusi bədii təsir gücünə malikdir. Həmin o qanlı-qadalı torpaqların yetirdiyi belə "şahid" sənətkarlardan biri də yazıçı

Məmməd Orucdur. Onun yurd, torpaq uğrunda savaş, əzmkarlıq, didərginlik faciələrini reallıqla qələmə alan silsilə romanları dövrün dəqiq tarixi mənzərəsini göstərmək baxımından da qiymətlidir.

Müasir Azərbaycan nəsrinin tanınmış nümayəndəsi, yazıçı, jurnalist Məmməd Oruc 1960-cı illərdə ədəbiyyata gəlmiş nəslin nümayəndəsidir. Görkəmli ədəbiyyatşünas Vaqif Yusifli yazıçının üslubu haqqında yazır: "Gəlir ki, kənddə yaşayan adi insanların qeyri-adi dünyasını, həyatla, məişətlə, müxtəlif qayğı və problemlərlə bağlı söz-sovunu oxuculara çatdırsın. Gəlir ki, kəndin məxsusi etnoqrafik, folklor inanclarını, dədə-baba yaşayış tərzini, milli-mənəvi dəyərlərini yazılarında əks etdirsin" [8].

Alimin bu dəyərli, lakonik fikrini həmçinin Məmməd Orucun doğma yurdu Böyük Vedidən bəhs edən "Qara güzgü" romanı haqqında da demək olar.

Məlumdur ki, xalqın tarixi yaddaşını, xüsusən də ölüm, qaçqınlıq, əsarət yaddaşını ədəbiyyat dilinə çevirmək yazardan xüsusi bacarıq tələb edir. Belə ki, "Tarixi roman yazan müəllifin ruhunda həmin tarixin ruhu olmalı, özünü o koloritdə hiss etməlidir. Onun havasını, psixologiyasını özününküləşdirməli, daha sonra əsərdə canlandıra bilməlidir ki, heç olmasa onun əlli faizini oxucuya çatdırsın" (Əsəd Cahangir). "Qara güzgü", "Köçürülmə" romanları elə bu səbəbdən oxucunu hadisələrin cazibəsində saxlayır, həyəcanlandırır, onu bələd olmadığı o kənd yolları və meydanları ilə dolaşdırır ki, yazıçı özü və ya ata-babası vaxtilə məhz həmin taleyüklü hadisələrin mərkəzində yer almış qəhrəmanlar idilər.

Roman janrına poetik qiymət verərkən rus ədəbiyyatşünası Osip Mandelştam məhz insan bioqrafiyasını onun əsas kompozisiya vahidi hesab edirdi [6, s.269]. Məmməd Orucun "Qara güzgü" romanında isə bir fərdin deyil, bütöv bir kəndin bioqrafiyası, taleyi göz önündə canlandırılır. Gəlin elə Böyük Vedi "bioqrafiyasındakı" o tarixi-coğrafi yerləri xatırlayaq.

**"Qara güzgü" romanında tarixi gerçəkliklər və Abbasqulu bəy Şadlinski.** Artıq bir əsrə yaxındır ki, ermənilərin işğalı altında olan Vedibasar mahalı, onun kəndləri Naxçıvanın yaxınlığında yerləşir və vaxtilə yerli sakinlərin şivə tərzi də Naxçıvan ləhcəsindən seçilməzmiş. Soykökü etibarilə Vedi torpağının övladı olan, uşaqlıq, gənclik dövrü bu el-oba içərisində keçmiş Məmməd Oruc əsərdə yeri gəldikcə Böyük Vedinin hər məhəlləsini ovuc içi kimi göstərən Qalabürc istehkamının, Gavur qalasının, Şidli, Şaablı, Qədirli, Dəvəli və bir çox digər toponimlərin adlarını çəkir. Tarixin dolanbaclarına şahidlik etmiş bu məkanlar, onların doğma isimləri hər bir azərbaycanlıda maraqla bərabər həsrət hissi də oyadır. Azərbaycan toponimlərinin öyrənilməsinin elmdə öz nəzəri və praktiki əhəmiyyəti vardır. Çünki onlar yerli xalqın tarixini, türk tayfalarının adlarını (Quqark, Gorus, Sak, Qaraqoyunlu, Kəvər və s.) əks etdirir. "Vedi" toponiminin isə mənbələr "iki dağ arasında olan uzun çuxur dərə" mənasını verən ərəb mənşəli "vadi" sözündən alındığını sübut etmişlər [2, s.71].

Haqqında bəhs etdiyimiz "Qara güzgü" əsəri Azərbaycan tarixinin məchul, mürəkkəb olduğu qədər də şanlı səhifəsi olan 1918-1920-ci illər mübarizəsini və bu hadisələr fonunda Böyük Vedidə baş verənləri qələmə alır. Əsərdəki hadisələr kəndin azyaşlı sakini – on beş yaşlı Kazımın dilindən nəql olunur, onun düşüncə, təfəkkür süzgəcindən keçirilir. Uşaq yaşlarından ata-anasını itirən Kazım kiçik qardaşı ilə əmisinin himayəsində böyüyür. Bu qəhrəmanın həyata elə ilk göz açması da savaş, hərc-mərclik zamanında baş vermişdi: "Anası Telli özü söyləmişdi ki, o, ermənilərin Vedibasara birinci hücumu zamanı qaçhaqaçda doğulub" [7, s.12].

1918-1920-ci illər çox da böyük zaman dilimi olmasa da, istər odövrkü azərbaycanlıların taleyində, istərsə də bütöv dövlətçilik tariximizdə çevriliş, inqilab, istiqlaliyyət, hərb, soyqırımı kimi mühüm vaqeələrin baş verdiyi bir dövrdür. Həmin illərin münaqişəli, mübahisəli bölgələrindən olan Böyük Vedi mahalı isə hələ XVIII əsrdə İrəvan xanlığının ərazisi idi. Lakin XIX əsrdə Çar Rusiyasının işğalçılıq siyasəti ilə Azərbaycanın xanlıq idarəçiliyi ləğv edilir. Əvəzində yeni yaradılan inzibati bölgüyə əsasən Böyük Vedi də olmaqla, ətraf nahiyələri birləşdirən İrəvan quberniyası yaradılır. "1872-ci ildən etibarən yeddi qəzadan ibarət olmuş İrəvan quberniyası Qacarlar dövləti və Osmanlı imperiyasından rusların köçürdükləri ermənilərin ən sıx məskunlaşdırıldıqları Azərbaycan torpaqları olmuşdur. 1897-ci ildə türk müsəlmanları quberniya əhalisinin 58%-ni, ermənilər 37%-ni, digər xalqlar isə (ruslar, yunanlar, yəhudilər və başqaları) 55%-ni təşkil edirdilər" [4, s.564].

XX əsrin ilk illərindən ermənilər "böyük Ermənistan" yaratmaq planı ilə yaşadıqları Azərbaycan torpaqlarında dinc əhaliyə divan tutmağa başlayır, əhalini amansızlıqla qətlə yetirərək şəhər və kəndləri yandırırdılar. İrəvanda, o cümlədən, Böyük Vedidə də tüğyan edən erməni basqınları 1918-1920-ci illərdə böyük fəlakətlərə səbəb olurdu.

Həmin o ölüm-dirim savaşlarının getdiyi Azərbaycan bölgələrinin hər birində mütləq xalqın xilaskarı, pənahı olmuş ölməz qəhrəmanlar yetişirdi. Bütün Vedibasar mahalının düşməndən müdafiə və müqavimət komandanı isə xalq içərisində adına nəğmələr, bayatılar söylənilən Abbasqulu bəy Şadlinski idi. Yazıçı Məmməd Oruc da əsərində bu tarixi şəxsin parlaq obrazını yaradır. "O, birinci dəfə idi haqqında nəğmələr qoşulub, adı dillər əzbəri olmuş Abbasqulu bəyi belə yaxından görür, belə yaxından dinləyirdi və fikirləşirdi ki, görəsən, qocanın da, cavanın da, yoxsulun da, varlının da, kişinin də, qadının da adı çəkilən anda "Allah onu bizim başımızın üstündən əskik eləməsin" söyləməsi nəyə görədi?" [7, s.88].

Abbasqulu bəy 1886-cı ildə bəy ailəsində dünyaya gözlərini açmışdı. Hələ uşaq yaşlarından çevikliyi, zirəkliyi ilə yoldaşlarından seçilər, at sürməyi bacararmış. Bu gəncin diribaşlığı, çevikliyi ilə bərabər, iti zəkası da var imiş ki, o, əvvəlcə Böyük Vedidəki rus-tatar məktəbində, sonra isə İrəvan gimnaziyasında, ardınca da Qori Müəllimlər Seminariyasında təhsil alır. Lakin tale bu gəncə sakit bir otaqda, kitablar arasında oturub elmlə məşğul olmaqdan çox odun-atəşin mərkəzində, ön cəbhədə vuruşmaq, bir elin pənahı, başbiləni olmaq missiyasını yazmışdı. Çox keçmir ki, gənc Abbasqulu Qori Seminariyasındakı təhsilini yarımçıq qoyub Böyük Vediyə qayıtmalı olur. Buna səbəb bir tərəfdən ata itkisi idisə, digər tərəfdən bütün imperiyanı bürüyən siyasi gərginlik, Bakıda və Qarabağda olduğu kimi, Naxçıvan və İrəvanda da baş qaldıran erməni iğtişaşları idi.

Abbasqulu bəyin şəxsiyyətindən xəbər verən mənbələr həmçinin onun kökdən, soydangəlmə bir əliaçıqlığa, səxavətə malik olduğunu vurgulayır. 1917-1918-ci illərdə "...müharibənin Qafqaz cəbhəsinin bu bölgəyə yaxınlığı, xüsusilə Qars, Ərdəhan və Ağrı dağı ətrafında gedən döyüşlər Vedibasar camaatına böyük maddi ziyan vurmuşdu. Buradan cəbhə xəttinə hələ də ərzaq, mal-qara, araba, minik və qoşqu heyvanları və s. daşınmaqda idi. Buna görə də Vedibasarda yolda-izdə yetim, kimsəsiz uşaqların sayı get-gedə artırdı. Abbasqulu bəy belələrinə dayaq durur, özü ilə evə gətirir, onları öz uşaqlarından seçmirdi" [5, s.38].

Beləcə, Vedinin həm təhsil görmüş, savadlı, həm hərbi-strateji zəkası, sərkərdəlik gücü ilə seçilən bu qəhrəman övladı ömrünün sonunadək elinin rifahı, torpaqlarının toxunulmazlığı uğrunda vuruşdu. 1918-1920-ci illər hadisələri

ərəfəsində onun cəmi 32-35 yaşı var idi. Lakin "Qara güzgü" romanında biz xalqın ona qarşı bir başbilən, ağsaqqal kimi davranışının, sayğısının ifadəsini görürük.

"– İstəkli vedililər! Mənim sizdən başqa arxam yoxdur, – araya çökən sükutda ətrafına baxdı və qoca kişilərdən birinin qırışmış sifətində yaş gördü, – mən fikrimi düz çatdırmadım, – sərkərdə dedi, – mənim sizdən başqa bir arxam da var. – Yenə eynəyinin üstündən camaatı süzdü, – o da Vedinin dağları..." [7, s.139].

Abbasqulu bəy Şadlinski "Qara güzgü" romanında süjetin hərəkətverici obrazlarından biri olsa da, buradakı ideya daha alidir. Əvvəldə qeyd etdiyimiz kimi, bu əsərin əsas qəhrəmanı obrazlı yanaşdıqda bütöv bir kənd və həmin kəndin bioqrafiyasını formalaşdıran camaatdır. On beş yaşlı Kazımın təhkiyəsində bir tərəfdən vedililərin mütəşəkkil formada səngərlərdə gecələməsi, min bir əziyyətlə patron, silah-sursat tapıb düşmənə dəfələrlə qan uddurması real səhnələrlə təsvir olunur: "Nə qədər düşmən varsa, səngər də olmalıdı, mənim balam, – dedi, – bu dünya əzəldən belə gəlib, belə də gedir" [7, s.50]. Digər tərəfdən alleqorik üslubdan istifadə edərək müəllif bu el mübarizəsini, onun sonunu, aqibətini obrazlı ifadə edir.

**Alleqorik üslubun yaratdığı at kultu və ya "Mudros" sazişi.** Məlumdur ki, at kultu türk dünyasının folklor və inanclarında arzu-muradı, mərdlik və döyüşkənliyi, var-dövləti təmsil edən qədim bir atributdur. Bundan əlavə, kənd həyatının da inkaredilməz bir parçasıdır. "Qara güzgü"də də müəllif qızğın döyüşlərin getdiyi bir mahalın taleyini, elə həmin mahaldan olan qara ürgənin (at balası) naz-nemətlə böyüdülməsi, azadlığı, minik, yük atı olmamaq üçün var gücü ilə dirənməsi və sonda da naqafil atılan bir düşmən gülləsinə qurban getməsi hadisələri ilə paralel aparır.

Əsərin qəhrəmanı – uşaq yaşlarından ata-anadan yetim qalıb əmisinin himayəsində böyüyən Kazıma elə əmisi həmin qara kürüyü bəxşiş etmişdi. Qaragöz adını verdiyi bu kürüyə Kazım həm əllərilə süd verib bəsləyir, həm də onunla dərdləşir, arzularını bölüşürdü. Qaragözün qara gözləri isə Kazımın güzgüsü idi. Hər dəfə onlara baxanda özünü gördüyü, telinə sığal çəkdiyi qara güzgüsü. Lakin Qaragözün minik atı olmaq yaşı gəlib çatanda bütün kənd yığılsa da, bu ərköyün atın belinə yəhər qoya bilmir. Qaragöz hər gün yorulub qan-tər içində qalanadək sürülsə də, təngnəfəslikdən bağrının yarılma həddinə çatsa da, yəhəri yaxına qoymur. Bu at mübarizəsi, əzmkarlığının özü də qəddar, arxalı düşmənə qarşı arxasız, lakin dəyanətli Vedi camaatının son nəfəsinə, taqətinə qədər müqavimətinin simvolu deyildimi? Vedililərin o qorxmaz müqavimətini müəllif necə də konkret təsvir edir: "... İki il qabaq elə ilin, ayın bu vədəsində Böyük Vedi ilk dəfə Ağ dağdan topa tutulanda bu topların gurultusundan qorxub qaçanlar oldu, amma uzaq getmədilər, qayıtdılar, sanki beş-on günün ayrılığında anladılar ki, elsiz yaşamaq mümkün deyil.

Qara Qəmbər cüt sürürmüş. Yaxınlığına düşən mərmi cütə qoşulmuş öküzlərdən birini öldürəndə Qara Qəmbər neynəsə yaxşıdır? Samını çəkib ölmüş öküzü boyunduruqdan çıxardır və başlayır bir tək öküzlə işini davam etməyə.

Bu əhvalatı hər yerdə söyləyirdilər və deyirdilər ki, erməni daşnaklarına rəhbərlik eləyən bir ingilis generalı Ağ dağdan durbinlə bu hadisəni izləyib və axırda da ermənilərə qandırıb ki, vedibasarlıları top-tüfənglə ram etmək mümkün olmayacaq, başqa yol axtarın" [7, s.37].

Bu epizodla oxucuya ötürülən milli cəsarət, hünərvərlik pafosu sadəcə müəllif təxəyyülünün məhsulu deyil. O, dövrün tarixi sənədlərində də ifadəsini tapıb.

Məlumdur ki, 1918-ci il bütün dünya tarixinin siyasi-coğrafi mənzərəsini dəyişmiş Birinci Dünya müharibəsinin də yekun ili idi. Savaşda Antanta blokuna

(İngiltərə, Fransa, Rusiya və d.) uduzmuş Türkiyə 1918-ci ilin oktyabr ayında "Mudros" barışıq sazişini imzalamağa məcbur olur. Bu sazişin bir maddəsi də Osmanlı ordularının tezliklə Cənubi Azərbaycanı və Cənubi Qafqazı tərk etmək tələbi idi. Tarixi "Mudros" sazişi, təbii ki, Azərbaycan Xalq Cümhuriyyətinin siyasi, diplomatik mexanizmi üçün də təsirsiz ötüşmədi. Xüsusilə ölkənin sərhəd münaqişələri haqqında tarixi mənbələr yazırdı: "Mudros sazişinə əsasən türk və alman qoşunlarının Zaqafqaziyadan geri çəkilməsindən və özünə müttəfiq saydığı Antanta ölkələrinin simasında ingilis qoşunlarının Zaqafqaziyaya mandat almasından sonra yaranmış fürsətdən istifadə edən Ermənistan tərəfi Azərbaycan və Gürcüstan əraziləri hesabına öz ərazisini genişləndirmək yolunu tutmuşdu. Lakin İrəvan quberniyasının Vedibasar və Zəngibasar nahiyələrində, Şərur-Dərələyəz qəzasında yerli müsəlman özünümüdafiə dəstələrinin erməni silahlı qüvvələrinə vurduğu sarsıdıcı zərbələr, gürcü qüvvələrinin Borçalı və Loruda əks-hücumları Ermənistanı sülh danışıqlarına getməyə məcbur etmişdi" [1, s.78].

Vedibasar ətrafındakı azğın erməni basqınlarına qarşı camaatın özünümüdafiə hərəkatı, Abbasqulu bəy Şadlinskinin mütəşəkkil komandanlığı, səngər strategiyası və nə olursa-olsun Vedinin mühafizəsi hadisələri dövrün bir çox sənədlərində əksini tapır. Hətta Vedi xalqının müqaviməti ilə bacara bilməyən imperializm siyasəti onu "Neytral zona" kimi də tanımağa başlayır.

Bütün bu hadisələr "Qara güzgü" əsərində yaxşı ümumiləşdirilmiş, at simvolu, onun əzmkarlığı, dözümlülüyü ilə maraqlı müqayisə yaradılmışdır. Qaragöz kürüyü günlərlə ac-susuz saxlayıb, döyüb danlasalar da və o, artıq ayğırdan çox yabıya bənzəməyə başlasa da, heç kəsə belinə qalxmağa imkan vermir. Lakin bir gün dağdan atılan bir top mərmisi Qaragözün həyatına son qoyur. Sahibi Kazımın güzgü bilib həmişə özünə baxdığı o qara gözləri birdəfəlik yumulur. "Bircə şeylə təskinlik tapdı. Əgər doğrudan da o dünya varsa, atası, anası onu Qaragözün gözündə görəcəklər; görəcəklər ki, o, necə bir oğlan olub..." [7, s.179]

Ramedilməz Qaragözün həyatdan köçməsi ilə inadkar Vedi camaatının da öz yurd-yuvasını məcburən tərk etməsi arasından çox vaxt ötmür. "Badronu badron ağırlığında qızıl verib" gah İrandan alan, gah da düşmənlə döyüşdə onu tərksilah edərək ələ keçirdiyi top-tüfənglə silahlanan və beləcə iki il azğın düşmən hücumlarına sinə gərən Vedi camaatı 1919-cu ildə Arazı adlayaraq İran ərazisindəki Mərənd şəhərində yurd-yuva qurmağa məcbur olur.

Bu tarixi romanla oxucu oradakı ölüm-dirim hadisələrinin gərginliyi, qorxu dolu təsiri altında qalsa da, müəllifin hər zaman təlqin etməyə çalışdığı ümid, nikbinlik ovqatını duymaya bilmir. İstər təhkiyəçi nitqi olsun, istərsə də kəndin qırağında gedən ağır döyüş səhnələrinin təsviri, o cümlədən kənd camaatının təlaş və xəbərsizlik içərisində birdən eşitdikləri "erməni qaçdı, erməni qaçdı" sədaları əsəri pessimist səciyyə və faciəvilikdən uzaqlaşdırır. Nə olursa-olsun əsərdə nikbin ruhu sönməyə qoymamaq xüsusiyyətini yazıçının digər nəsr əsərlərində də müşahidə edirik. Lakin "Qara güzgü" romanında nikbinlik, ümid və inamı müəllif sadəcə təhkiyə şəkli və ya ovqatda saxlamır, onu əsas ideya, bədii qayə səviyyəsində irəli sürür.

Əsərin təhlilindən artıq yaxşı tanıdığımız Qaragöz cins Qarabağ ayğırı ilə yerli madyandan doğulmuş və Kazımın inək, keçi südü ilə bəslədiyi yetim bir kürükdür. Bir gün kəndin ağsaqqalı Abdulla baba Kazıma deyir: "Yadında saxla, yetim quzudan qoç, yetim kürükdən ayğır olmaz" [7, s.61]. Bu söz kiçik qardaşı ilə birlikdə əmi himayəsində böyüyən Kazımın ürəyini dəlib keçir. Bu sözlər təhlükəli

hadisələrin yaşandığı bütün əsər boyu yazıçının aşıladığı nikbin ruh, inam, cəsarət duyğusu ilə əks qütblərdə dayanırdı. Buna görə də yazıçı həmin təzadı inkişaf etdirərək əsas ideya olan el birliyi, əzmkarlıq ideyasının xeyrinə həll edir. Qaragözün ram edilməsi tamaşasına hər gün az qala bütün kənd toplaşır. Lakin heç cürə onun belinə yəhər qoya bilmirlər. Bu zaman səslər eşidilir: "Kirvə, bu, doğrudan da, əsl ayğırdı, sən bunu minə bilməyəcəksən", "Deyirlər yetim kürükdən ayğır olmaz. Bu da yetim kürükdən olan ayğır!" [7, s.81]

At muraddır deyiblər... "Qara güzgü"nün at qəhrəmanı güzgü kimi gözlərini əbədi yumsa da, yazıçı əsərində gücün, diləyin rəmzi olan at simvolunu axıradək yaşadır. Vedi camaatı qəlbində böyük dərd, didərginlik yükü, belində isə yad ellərə daşıdığı evinin yükü ilə Arazın o tayına keçəndə də ürəyində öz doğma ocağına dönmək arzusunu dəfn etmədi. Qürbət eldə yaşadıqları müddətdə Kazımın daha bir atı oldu. "Və bu ata mehr saldıqca, elə bil bu atın gözləri də qara güzgüyə çevrilirdi... Deməк, doğrudan da, zaman bütün yaraları soyudurmuş...[7, s.180]

Vedi xalqının ürəyində bəslədiyi o qayıdış arzusu doğrudan da göyərir. Abbasqulu bəyin vədi düz çıxır. Vedililər iki il keçməmiş, yəni 1921-ci ildə yenidən ata-baba ocaqları Vediyə qayıdırlar. Lakin artıq yeni bir quruluşun "xalqlar dostluğu" bayrağı altında yaşamaq üçün...

**Nəticə.** XX əsrin 60-cı illərində ədəbiyyata gəlmiş Məmməd Orucun nəsr əsərləri içərisində tarixi-vətənpərvərlik mövzusunda qələmə aldığı "Qara güzgü" romanının ayrıca yeri vardır. İlk növbədə əsər postsovet dövrünün məhsulu kimi Azərbaycan ərazilərinə, xalqına qarşı törədilmiş işğalçılıq siyasətinin bir çox gerçəklərinə işıq tutur. Bu acı gerçəklər içərisində 1918-1920-ci illərdə İrəvan vilayətinin Böyük Vedi kəndinə olan saysız xain erməni basqınları da var idi. Müəllif qədim ata-baba yurdu olan bu kəndin düşmənə qarşı əzmkar və mütəşəkkil birliyini, döyüş və qələbələrini tarixə istinadən qələmə almışdır.

Tarixi mənbə və sənədlərdən məlumdur ki, 1918-1920-ci illərdə imperializm siyasətinin xəritədə "Neytral zona" adı ilə Azərbaycandan ayırdığı Vedi ərazisi, onun xalqı həqiqətən də düşmən hücumlarına cəsur müqavimətlə, güclü döyüşlərlə cavab vermişdir. Bu olmuş hadisələrin daha təsirli, ekspressiv inikası üçün müəllif türkün mərdlik, güc inancı olan at kultunu seçir. Əsərin əsas təhkiyəçisi, on beş yaşlı oğlanın atı Qaragöz bu romanda Vedi camaatının yurdu uğrundakı müqavimətinin simvolu olaraq verilir. Bu baxımdan roman mürəkkəb süjet quruluşuna malikdir. Bir tərəfdə kənd camaatının müharibə şəraitindəki gərginliyi, mühacirət təlaşı, digər tərəfdə isə belinə yəhər qoyulub minik atına çevrilməməsi üçün Qaragözün axıradək verdiyi mücadilə.

Bütöv bir kəndin məişət, həyat tərzini, insanlarının arzu və istəklərini çoxsaylı obrazlarla təqdim edən bu əsər at kultu olmadan da dolğun ola bilərdi. Lakin torpaq uğrunda mübarizənin, xalq birliyinin məhz at inadı ilə müqayisəsi müəllifin həm də atlar oylağı olan doğma yurdu üçün həsrət və kədərinin timsalıdır.

## İSTİFADƏ EDİLMIİŞ ƏDƏBİYYAT:

1. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: “Qartal”, 1998, 218 s.
2. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: “Elm”, 2002, 346 s.
3. Cahangir Ə. Tarixi roman bumu: yeni dəb, yoxsa nə? – Müzakirə. https://www.avanqard.net/ Avanqard.net mədəniyyət portalı, 10 noyabr, 2013
4. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı, 2012, 912 s.
5. Ələkbərli Ə. Abbasqulu bəy Şadlinski. Bakı: “Sabah”, 1996, 320 s.
6. Мандельштам О. Конец романа. Собрание сочинений в трёх томах. Т 2. Проза. Мюнхен: Международное Литературное Содружество, 1971, 726 стр.
7. Oruc M. “Qara güzgü, Köçürülmə, Qısa qapanma (üç roman)”, Bakı: “Nərgiz”, 2016, 496 s.
8. Yusifli V. Məmməd Oruc: 70 yaşa nikbin yazıçı ovqatıyla... “525-ci qəzet”, 4 mart 2017

***Nazmiyya Yigitoglu***

## The realities of the occupation of Vedibasar in the artistic creativity (Based on Mammad Oruj's historical novel "Black mirror")

***S u m m a r y***

Artistic creativity of Azerbaijani literature in the end of the 20$^{th}$ and the beginning of the 21$^{st}$ century is mainly studied under the name "Independence period of literature". The literary works generated over these decades are wealthy with contents and ideas such as an exposure of the Soviet political regime, national self-awareness, return to the historical roots and so on.

The well-known Azerbaijani writer Mammad Oruj's novels occupy a special place in the collection of "The independence period of Literature".

The Armenian occupation, the Dashnak-Armenian attacks on Azerbaijanis, appeared sometimes secretly, sometimes explicitly in the 20$^{th}$ century, found its reflection in writer's novels on historical events.

The given article analyzes the idea-content and style properties of Mammad Oruj's novel "Black mirror" (2015) and emphasizes its significance in finding out Azerbaijani historical realities in 1918-1920s.

The years 1918-1920 are the particular stage of the Azerbaijani history which is remembered with the revolutions, national independence, coup d'etat, political arrests and emigrations. On the other hand, the uninterrupted Armenian-Dashnak attacks to the various Azerbaijani regions, the genocide of Azerbaijanis also is a bloody, screaming page of this history.

In the novel "Black mirror" by the writer Mammad Oruj, the events of 1919-1920 in the territory of "Boyuk (Great) Vedi", the land of ancient Azerbaijan – the attacks of the Armenian Dashnak army on the village and the struggle and life of the Vedi people, as well as the complex political landscape of the time find their artistic expression.

The novel "Black Mirror" is also a remarkable work in terms of studying the toponymy and geographical names of the Iravan region, one of the historical lands of Azerbaijan.

***Назмия Йигитоглу***

**Реалии оккупации Ведибасара в художественном творчестве (По роману Мамед Оруджа «Чёрное зеркало»)**

***Р е з ю м е***

Как правило, художественное творчество конца XX и начала XXI века азербайджанской литературы изучается под названием «Литература периода независимости». Произведения, созданные в эту эпоху, в основном отличаются такими содержательно-идейными свойствами, как разоблачение бывшего советского политического режима, национальное самосознание, преданность к историческим корням и т. д. К плеяде таких национально-патриотических работ также относится серия исторических романов известного азербайджанского писателя Мамеда Оруджа.

Жестокие нападения дашнакских армян на мирные населения Азербайджана, происходящие в начале XX века, в исторических реалиях нашло своё отражение в прозе автора «Чёрное зеркало».

В представленном исследовании анализируется идея и содержание романа «Чёрное зеркало», созданное Мамедом Оруджем в 2015 году. Отображается значение романа, в изучении событий 1918-1920-х годов азербайджанской истории в политическом, национальном, бытовом аспектах.

В рассматриваемом романе писателя Мамеда Оруджа находит своё эстетическое отражение ряд событий, происходящих в 1919-1920-х годах в древнейшем азербайджанском крае, деревни Большой Веди. Важное место среди этих событий, занимает нашествия армяно-дашнакских сил на местное население, а также решительная борьба и образ жизни techединцев. «Чёрное зеркало» также примечательный источник в отношении изучения топонимики древнего азербайджанского края Иреван.